

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 174 (21.584)

17 sentyabr 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün sentyabrın 16-da Qırğız Respublikasına səfərə gedib.

* * *

Sentyabrın 16-da Qırğızıstanın paytaxtı Bişkek şəhərində MDB Dövlət Başçıları Şurasının növbəti iclası keçirilib.

MDB-nin yaradılmasının 25 illiyinə təsadüf edən iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də iştirak edib.

Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb.

Dövlət və hökumət başçıları birgə foto çəkdiriblər.

Əvvəlcə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirilib.

Azərbaycan Prezidenti İlham Əliyev iclasda çıxış edib.

Sonra iclas işini geniş tərkibdə davam etdirib.

Dövlət başçıları qərara gəliblər ki, Dövlət Başçıları Şurasının növbəti iclası 2017-ci ildə Rusiya Federasiyasında keçirilsin.

Sonra sənədlərin imzalanması mərasimi olub.




## Səhiyyə müəssisələrində vakant həkim və orta tibb işçisi yerləri üzrə əmək yarmarkası keçirilib



*Sentyabrın 16-da Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə səhiyyə müəssisələrində vakant həkim və orta tibb işçisi yerləri üzrə əmək yarmarkası keçirib.*

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov tədbiri giriş sözü ilə açaraq səhiyyə sistemində aparılan quruculuq işlərindən, həyata keçirilən islahatlardan danışıb. Qeyd olunub ki, son illər səhiyyənin inkişafında, yeni strukturlu müəssisələrin yaradılmasında, tibbi xidmətin yüksək səviyyədə aparılmasında, tibbi kadrların hazırlanmasında müəyyən uğurlar əldə edilib. Bütün bunların nəticəsidir ki, artıq muxtar respublikanın yerli kadrları müstəqil şəkildə xəstələr üzərində açıq ürək, angioqrafiya, laporoskopik, TUR, LOR, göz və digər mürəkkəb cərrahi əməliyyatları uğurla həyata keçirirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək bildirib ki, insanların sağlamlığının yüksək səviyyədə təmin olunması və qorunması, səhiyyə sisteminin yeni dövrün tələblərinə uyğunlaşdırılması, müasir tibb infrastrukturunun yaradılması muxtar respublikamızda həyata keçirilən sosial siyasətin mühüm tərkib hissəsini təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində əhaliyə nümunəvi tibbi xidmətin təşkili məqsədilə yeni tibb müəssisələri tikilir və ya yenidən qurulur, səhiyyə ocaqları müasir tibbi avadanlıqlarla təchiz edilir. Vaxtilə diqqətdən kənarda qalan ucqar dağ kəndlərində belə, bu gün müasir həkim ambulatoriyaları, feldşer-mama məntəqələri fəaliyyət göstərir.

Vurğulanıb ki, səhiyyə sisteminin yenidən qurulması, müasir dünya standartlarına uyğunlaşdırılması bu xidməti keyfiyyətcə daha da yaxşılaşdırıb, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması, sağlamlığa mənfi təsir edən faktorların aradan qaldırılması, ana və uşaqların, ahıl vətəndaşların sağlamlığının qorunması işində əsaslı dönüş yaradıb.

Səhiyyə sistemində həyata keçirilən tədbirlərin nəticəsidir ki, əhalinin başqa yerə getmədən muxtar respublikanın özündə müayinə və müalicə olunmaları üçün bütün imkanlar var.

Qeyd olunub ki, muxtar respublikada tibbi kadrların hazırlanması da diqqətdə saxlanılır. Naxçıvan Dövlət Universitetində ali təhsilli, Naxçıvan Tibb Kollecində isə orta ixtisas təhsilli tibbi kadrların hazırlanması üçün lazımi şərait mövcuddur.

Səhiyyə müəssisələrinin tibbi kadrlara olan tələbatını ödəmək, eləcə də muxtar respublikada hazırlanan ali və orta ixtisas təhsilli kadrların işlə təminatı məqsədilə hər il tibb işçilərinin əmək yarmarkası keçirilir. Bu gün təşkil olunan yarmarkaya Səhiyyə Nazirliyi üzrə 394 həkim, 139 tibb işçisi olmaqla, 533, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə isə 8 həkim vəzifəsi çıxarılıb. Ümumilikdə, yarmarkaya çıxarılan boş iş yerlərinin sayı 541-dir.

Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, tibb işçiləri üçün muxtar respublikada bütün zəruri şərait yaradılıb. Kənd yerlərindəki səhiyyə müəssisələrində yeni əmək fəaliyyətinə başlayan gənc mütəxəssislər üçün bir sıra güzəştlər və stimullaşdırıcı tədbirlər müəyyənləşdirilib. Belə ki, dövlət ali və orta ixtisas məktəblərini tibbi ixtisaslar üzrə bitirərək dövlət sifarişinə uyğun iş yerlərində əmək fəaliyyətinə başlayan və bu fəaliyyəti davam etdirən gənc mütəxəssislərə 3 il müddətində kommunal xidmətlərini ödəmək üçün ayda 33 manat məbləğində kompensasiya verilir. Həmçinin rayon mərkəzlərindən 20 kilometrdən artıq məsafədə yerləşən tibb müəssisələrində əmək fəaliyyətinə başlayan hər bir nəfər üçün 3 il müddətində aylıq əməkhaqqına 66 manat məbləğində əlavələr ödənilir. Ciddi kadr tələbatı olan bölgələrdə əmək fəaliyyətinə başlamaq üçün konkret iş yerlərinə göndəriş almış gənc mütəxəssislərə isə yol xərci, əmlakın daşınması üçün nəqliyyat xərci və ilkin yaşayış şəraitinin yaradılması məqsədilə əməkhaqqının 2 misli həcmində birdəfəlik yardım ödənilir.

Rəhman Məmmədov gənc kadrların əmək yarmarkasında fəal iştirak edəcəklərinə əminliyini bildirib, onlara əmək fəaliyyətlərində uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov bildirib ki, vətəndaşların səmərəli məşğulluğunun təmin olunması, onların sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarının inkişafı muxtar respublikada daim diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Belə ki, cari ilin ötən dövrü ərzində təşkil edilmiş əmək yarmarkalarında, ümumilikdə, 352 nəfər peşə və ixtisasına uyğun işlə təmin olunub.

Əmək bazarının tələbləri nəzərə alınaraq müxtəlif ixtisaslar üzrə peşə hazırlığının təşkili, tətil günlərində işləmək istəyən tələbələrin mövsümi işlərə göndərilməsi, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin məşğulluğunun təmin edilməsi istiqamətində də bir sıra işlər görülüb. Cari ilin ötən dövründə müvafiq peşə kurslarına 206 nəfər cəlb edilib. İşlə təmin olunanlardan 572 nəfərini gənclər, 321 nəfərini qadınlar, 76 nəfərini məhdud fiziki imkanlı, 72 nəfərini aztəminatlı, 20 nəfərini hərbi xidmətdən tərxis olunan, 6 nəfərini isə cəzaçəkmə müəssisəsindən azad olunan şəxslər təşkil edib.

Naxçıvan Dövlət Universitetinin Pediatriya ixtisası üzrə məzunu, işaxtaran Günay Hətəmova gənc kadrların işlə təminatında əmək yarmarkalarının əhəmiyyətindən danışıb, işəgötürənlər tərəfindən yaradılan şəraitə görə öz minnətdarlığını bildirib.

Sonra işaxtaran ali və orta ixtisas təhsilli məzunlar Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin birinci mərtəbəsində təşkil edilmiş əmək yarmarkasında iştirak ediblər. Muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi məqsədilə müəssisə və təşkilatlarda mövcud olan boş iş yerləri barədə məlumatların hər ay toplanması, müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatın müəyyənləşdirilməsi, buna uyğun olaraq keçirilən əmək yarmarkaları gənc kadrların işlə təminatında şəffaflığın təmin olunmasına şərait yaradıb.

Yarmarkada Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturundakı səhiyyə müəssisələri də daxil olmaqla, 541 vakant yer təklif edilib, işaxtaranları maraqlandıran suallar cavablandırılıb.

Gün ərzində davam edən əmək yarmarkasında 4 həkim, 13 tibb bacısı işə göndəriş alıb.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

*Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Təhsil nazirlikləri tərəfindən şəhər və rayonlarda fəaliyyət göstərən təhsil müəssisələri rəhbərlərinin, təhsil şöbələri müdirlərinin, təhsil ocaqlarında olan iaşə xidməti işçilərinin iştirakı ilə tədbir keçirilib.*

## Təhsil müəssisələrində ictimai iaşə xidmətinin səviyyəsi diqqət mərkəzindədir



Tədbirdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində təhsil müəssisələrində tədrisin vəziyyəti və qarşıda duran vəzifələr barədə keçirilən müşavirələrdə muxtar respublika rəhbəri tərəfindən İqtisadiyyat Nazirliyi qarşısında da bir sıra vəzifələr qoyulub. Bu vəzifələr sırasında təhsil müəssisələrinin geyim formalarına olan tələbatının müəyyənləşdirilməsi, qəbul edilmiş formada şagird, tələbə və müəllimlər üçün keyfiyyətli parçadan geyim dəstlərinin hazırlanması, yarmarkalarda və kəndlərdəki xidmət mərkəzlərində bu geyim dəstlərinin münasib qiymətə satışının təmin olunması, iaşə və məişət xidmətlərinin təşkili, təhsil, o cümlədən məktəbəqədər tərbiyə müəssisələrinin yeməkxanalarının yerli ərzaq məhsulları ilə təminatına üstünlük verilməsi və bu sahəyə diqqətin artırılması da var. Ötən müddətdə qarşıya qoyulan vəzifələrin icrası istiqamətində bir sıra işlər görülüb.

Qeyd edilib ki, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən müəssisə və təşkilatların ərzaq təchizatı "Naxçıvan Məhsulları" MMC tərəfindən həyata keçirilir. Adıçəkilən cəmiyyət tərəfindən hər bir məhsul üçün istehsalçı şirkətlərdən gigiyenik və uyğunluq sertifikatı alındıqdan sonra ərzaq məhsulları müəssisələrə verilir. Bundan başqa, müntəzəm olaraq təhsil ocaqlarında yerləşən ictimai iaşə obyektlərində müəyyənləşdirilmiş qaydaların tələblərinə əməl olunması, yerli istehsal məhsullarının satışına üstünlük verilməsi və satışda olan malların keyfiyyəti diqqət mərkəzində saxlanılıb, yarmarkalarda təmin edilib. Bu istiqamətdə işlər davam etdirilir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov çıxış edərək bildirib ki, bu il Naxçıvan Biznes Mərkəzində müəssisə, təşkilat rəhbərləri və sahibkarlarla görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri dövlət büdcəsindən maliyyələşən təşkilatların yalnız yerli istehsal məhsullarını almaları, daxili bazarda yerli məhsullara daha çox üstünlük verilməsi ilə bağlı tapşırıqlar verib. Verilmiş tapşırıqların icrasının təmin olunması, bufetlərdə mövcud nöqsanların aradan qaldırılması, işçilərin məsuliyyətinin artırılması ilə əlaqədar olaraq Təhsil Nazirliyi tərəfindən bir sıra maarifləndirici tədbirlər həyata keçirilib. Bu məqsədlə rayon (şəhər) təhsil şöbələrinin müdirlərinə, müəssisə rəhbərləri və digər aidiyyəti şəxslərə təhsil müəssisələrində iaşə xidmətinin təşkili zamanı yalnız muxtar respublikada istehsal olunan məhsulların alınması ilə bağlı tapşırıqlar verilib.

Cari tədris ilində fəaliyyətdə olan bufetçilər təhsil müəssisələrində satışına icazə verilən, uyğunluq sertifikatı olan yerli məhsulların təhsil müəssisələrinə gətirilməsinə nail olmalıdırlar. Eyni zamanda qəbul edilmiş məhsulların mədaxil uçotu və brakeraj jurnallarının tələb olunan səviyyədə aparılması, bufet və yeməkxanalarda sanitariya qaydalarına əməl olunması, iaşə xidməti işçilərinin tibbi müayinədən vaxtında və tam şəkildə keçmələri təmin olunmalıdır. Təhsil Nazirliyi təhsil müəssisələrində iaşə xidmətinin təşkilinin günün tələbləri səviyyəsində qurulması və bu sahədə təhsilli gənc kadrların fəaliyyət göstərmələrinin təmin edilməsi məqsədilə Ordubad və Şərur Texniki Peşə və Sürücülük məktəbləri, eyni zamanda Naxçıvan Şəhər Peşə Liseyində bufetçi peşə ixtisasının kursunun açılmasını həyata keçirəcək.

Sonra mövzu ətrafında müzakirələr aparılıb.

**Səbuhi HÜSEYNOV**

## Şahbuz şəhəri: ana təbiətin giriş qapısı



***Naxçıvanın hərtərəfli inkişafı və gözəlliyi haqqında indi daha çox danışılır. Son iki onillikdə sürətli inkişaf dövrü keçərək ölkəmizin nümunəvi regionlarından birinə çevrilən bu diyarın özü qədər saf gözəlliyini bura gələn hər kəs birmənalı olaraq etiraf edir. Qədimliklə müasirliyi, təbiiliklə insanın yaradıcı qüvvəsinin sərhədsizliyini özündə əks etdirən bu cazibədarlıq Naxçıvanın qismətinə məhz son iyirmi ildə yazılıb. Təbii ki, insan əlinin zəhməti ilə yaradılmış bu gözəlliklərdən diyarın hər bölgəsinə pay düşüb. Şahbuz rayonu da bu sırada istisna deyil.***



Tarixi mənbələrə görə, XVI əsrdə burada 27 kəndi, iki məzrəəni (insan yaşamayan yer), Oyuqlucaqaya, Bazaryurd, Dərəbaş gədiyi, Qaçdaş, Nərkeçi və Armudlu yaylaqlarını əhatə edən Dərəşahbuz nahiyəsi yaradılıb, XIX əsrin 40-cı illərinə qədər fəaliyyət göstərib. 1925-ci ildə Naxçıvan inzibati ərazi vahidində Nərimanov rayonu adlandırılıb (30 kəndi əhatə edib), 1930-cu ildən "Şahbuz" adı bərpa olunub. Rayon 1963-cü ildə ləğv edilərək Naxçıvan (indiki Babək) rayonuna birləşdirilib, 1965-ci ildə yenidən təşkil olunub. Şahbuz rayonu Naxçıvan Muxtar Respublikasının digər rayonlarından bəzi xüsusiyyətləri ilə fərqlənir. Muxtar respublika ərazisində yeganə dəmir yolu xətti keçməyən bölgə Şahbuz rayonudur. Bu rayon Naxçıvanda nadir flora və fauna növlərinin, meşə və su ehtiyatlarının ən çox yayıldığı ərazilərə malikdir. Bundan əlavə, təbii şəraitin əlverişliliyindəndir ki, muxtar respublikada ilk kənd turizmi layihəsi bu rayonun ərazisində həyata keçirilib. Uca Yaradan bu bölgəmizə elə təbii gözəlliklər bəxş edib ki, bu gözəlliklər Şahbuzu digər bölgələrimizdən əhəmiyyətli dərəcədə fərqləndirir. Əgər Ordubad və Culfa rayonları üçün daha çox tarixilik, Babək və Şərur rayonları üçün sənaye və kənd təsərrüfatı sahələrinin müxtəlifliyi hakimdirsə, Şahbuz rayonunda ana təbiətin özü daha səciyyəvi xarakter daşıyır. Bəlkə də buna görədir ki, Şahbuz adını eşidərkən gözlərimiz önündə ilk olaraq bu rayonun təbiəti canlanır. Bu təbiəti görmək, onunla təmasda olmaq yerli sakinlərlə yanaşı, Naxçıvana gələn qonaqların da arzusuna çevrilir. Axı Cənubi Qafqazın əsrarəngiz gözəlliyə məxsus Batabat yaylağında gəzmək, dünyada bənzəri olmayan "Üzən ada"nı seyr etmək, yayın ən qızmar günlərində belə, havası ilə insanı üşüdən Kükü, Biçənək, Ağbulaq, Gömür kimi kəndləri gəzib-dolaşmaq kimin ürəyindən keçməz ki? Ancaq bütün bunlara aparan yol Şahbuz şəhərindən keçir. Elə buna görə də Şahbuz şəhərini eyni zamanda ana təbiətin giriş qapısı adlandırmaq olar. Biz isə bu dəfə qapıdan keçməyəcəyik, elə astanada gördüklərimizdən bəhs edəcəyik.

Hazırkı Şahbuz şəhəri Sovetlər Birliyi dövründə diqqət mərkəzində olmayan bir ərazi kimi xalqın yaddaşında qalıb. Ərazicə kiçik, infrastruktur baxımından çox kasıb olan rayon mərkəzi muxtar respublikanın bu statusda olan digər ərazi vahidlərindən xeyli geridə qalıb. Ancaq bu ətalətə 20 il bundan əvvəl əlvida deyilib və ötən dövrdə rayon mərkəzi elə bir sürətli inkişaf yolu keçib ki, burada görülən işləri heç 20 ilə sığışdırmaq mümkün kimi görünmür. Şahbuz şəhəri indi muxtar respublikanın sayılıb-seçilən rayon mərkəzlərindən birinə çevrilib.

Şahbuz qəsəbəsinə 2007-ci ildə şəhər statusu verilib. 2013-cü il fevralın 22-də isə Azərbaycan Respublikası Milli Məclisinin Qərarı və 2013-cü il mart ayının 15-də ölkə Prezidentinin imzaladığı Sərəncamla sahəsi 1454 hektar olan Qarababa kəndi bütövlükdə, Ayrınc kəndinin 92,8 hektar sahəsi, Daylaqlı kəndinin 274,8 hektar sahəsi Şahbuz şəhərinə verilib. Bundan sonra rayon mərkəzi olan Şahbuz şəhərinin ərazisi 2826,6 hektaradək genişlənib. Ancaq bu tarixədək Şahbuz şəhəri başdan-ayağa yeniləşmə dövrü keçib. Muxtar respublikanın ən yeni tarixində mühüm istiqamətlərdən birinə çevrilən tikinti bumu Şahbuz şəhərinin simasını dəyişib. Belə ki, ötən dövrdə şəhərin Heydər Əliyev prospekti və "28 May" küçəsi boyu sıra ilə düzülən rayon İcra Hakimiyyəti, Maliyyə, Təhsil, Polis şöbələri, Baytarlıq və Rabitə idarələri, Dövlət Sosial Müdafiə Fondunun Şahbuz Rayon Şöbəsi, Əhalinin Sosial Müdafiəsi, Gigiyena və Epidemiologiya mərkəzləri, Tarix-Diyarşünaslıq Muzeyi, Avtovağzal, "Araz" kinoteatrı, Mərkəzləşdirilmiş Kitabxana Sistemi, Uşaq kitabxanası, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı, ümumilikdə, 40-a yaxın təşkilat üçün inşa olunan, yaxud yenidən qurulan binalar Şahbuza şəhər elementlərinə xas görkəm bəxş edib. Quruculuq tədbirlərinin davamı kimi hazırda şəhərdə rayon Elektrik Şəbəkəsi üçün inzibati bina tikilir.

Qeyd etmək lazımdır ki, muxtar respublikada mövcud beş şəhərdən biri olan Şahbuz bir çox spesifik xüsusiyyətlərinə görə digərlərindən seçilir və istənilən baxış bucağından yanaşsaq, Şahbuz üçün təbiət amili qaçılmazdır. Məsələn, 1 prospekti, 20-dən artıq küçəsi olan Şahbuz şəhəri muxtar respublikadakı digər şəhərlərdən ikimərtəbəli yaşayış binalarının çoxluğu ilə seçilir. Şəhərdəki 21 yaşayış binasından ikisi istisna olmaqla (biri üçmərtəbəli, digəri altımərtəbəli), digərləri iki mərtəbədən ibarətdir. Əslində, bunu vaxtilə, elə indinin özündə də şəhər əhalisinin az olması faktı ilə bağlamaq düzgün deyil. Nəzərə alaq ki, Şahbuz şəhəri iri sənaye və istehsal müəssisələrinin cəmləşdiyi deyil, dağlıq və dağətəyi turizm imkanlarına malik bir rayon mərkəzidir. Dünya təcrübəsində də belə turizm potensialına malik ərazilərdə yüksəkmərtəbəli yaşayış binalarına çox nadir hallarda rast gəlinir. 2 tam orta məktəbi, 1 məscidi, 1 mehmanxanası olan bu şəhərdə, hərbçi ailələrini nəzərə almasaq, hazırda 5000-ə yaxın sakin yaşayır. Yeri düşmüşkən, ötən əsrin 70-ci illərinin əvvəllərində istifadəyə verilmiş mehmanxana sovet dövründə Azərbaycanın bəzi rayon mərkəzlərinin qismətinə düşmüş azsaylı mehmanxanalardandır. Mehmanxana tikintisinə o zaman ehtiyac olur ki, həmin bölgəyə qonaqların daimi axını olsun. Şahbuz rayonu isə Naxçıvana yolu düşənlərin ən çox üz tutduğu bölgələrdən olub. Təbiət mənzərələri Şahbuzu bu baxımdan digərlərindən fərqləndirib. Və yaxud götürək Şahbuz şəhərində yerləşən Ahıllar evini. Bura təyinatına görə Azərbaycanda butipli iki müəssisədən biridir. Ahıllar evində, əsasən, kimsəsiz insanlar yaşayırlar. Ahıllar evinin Şahbuz şəhərində salınmasında da böyük ehtimalla rayon mərkəzinin sakit, havasının təmiz olması az rol oynamayıb. Yəni yenə də təbiət amili.

Yazının əvvəlində qeyd etdik ki, Şahbuz rayonu bol su mənbələri ilə zəngin bölgələrimizdəndir. Son illərdə rayon mərkəzinin suvarma və içməli su ilə təminatında mühüm addımlar atılıb. Şahbuz dağlarının bumbuz bulaqlarından şəhərə yeni su xətti çəkilib, yaşıllıqların suvarılması üçün əməli tədbirlər görülüb. Təkcə Şahbuz şəhərində altı bulaq-abidə kompleksi var ki, bu bulaqların hər biri şəhər sakinlərinin, eləcə də bura yolu düşən hər kəsin isti yay günlərində sərinləməsinə imkan verir. Məcazi yox, sözün həqiqi mənasında, Şahbuz şəhərinə girişdə və çıxışda sərnişinləri ilk qarşılayan da məhz elə bulaqlardır.

Vurğuladığımız kimi, Şahbuz şəhərində böyük sənaye müəssisələri yoxdur. Ancaq özünəməxsusluq bu sahədə də qorunub. Bir çox kiçik müəssisələrlə yanaşı, şəhərdə "Şahbal" və "Farma Şah" Məhdud Məsuliyyətli cəmiyyətlərinin fəaliyyəti diqqət çəkir. Rayonun coğrafi şəraiti, iqlimi, təmiz havası, saf suyu bu bölgədə arıçılığın və yüksək müalicəvi əhəmiyyətə malik dərman bitkilərinin inkişafına şərait yaradıb. Elə təbiətin bəxş etdiyi bu gözəlliklərin sayəsində şəhərdə məhz bu profildə fəaliyyət göstərən müəssisələr yaradılıb.

Şahbuz şəhəri ötən illərdə böyük inkişaf yolu keçib. Bu yazıda adını sadaladığımız ünvanların hər biri ötən dövrdə tikilərək və ya yenidən qurularaq əhalinin istifadəsinə verilib. Bundan əlavə, şəhərdə yaşıllaşdırma tədbirlərinin həyata keçirilməsi diqqət mərkəzində saxlanılıb. Təkcə şəhər ərazisində meyvə bağlarının həcmi 26 hektara çatdırılıb. Digər tərəfdən şəhərin prospekt və küçələrində çoxsaylı ağaclar əkilib. Bu sahədə ən diqqətçəkici məqamlardan biri də əkilən ağaclar içərisində çinar ağaclarının çoxluğudur. Bildiyimiz kimi, çinar ağacları həm sərinliyinə, həm də uzunömürlülüyünə görə digər bəzək və meyvə ağaclarından fərqlənir. Bu baxımdan Şahbuzu bir neçə il sonra "çinarlar şəhəri" adlandıracağıq.

*Bəli, təbiətin bəxş etdiyi imkanlar insan əməyinin nəticəsi ilə birləşəndə əsl gözəlliyin şahidi olursan. Məhz bu gözəlliyi indi Şahbuz şəhərinin timsalında hər kəs görə bilər. Şahbuz kiçik şəhərdir. Ancaq kiçik olması ilə yanaşı, qonaqlıqaralı yerdir. İndi Naxçıvana gələn qonaqlar da, yerli sakinlər də istirahət seçimində ən çox bu rayona üstünlük verirlər. Şahbuzun təbii gözəlliklərinə gedən yol isə bu dağlıq bölgənin sakit, təmiz, səs-küydən uzaq rayon mərkəzindən – Şahbuz şəhərindən keçir. Bu mənada, Şahbuz şəhəri həm də ana təbiətin giriş qapısıdır.*

**✍ Səbuhi HƏSƏNOV**

***Əkinçilikdə yüksək məhsuldar toxumlardan istifadə bol məhsul istehsalının mühüm şərtlərindəndir. Tarixən insanlar torpaqdan daha çox və daha keyfiyyətli məhsul ala bilmək üçün müxtəlif seleksiya üsullarından istifadə edərək məhsuldar bitki sortları əldə ediblər. Muxtar respublikamızda hazırda bu vacib sahənin inkişafına göstərilən diqqət buranın iqlim və torpaq xüsusiyyətlərinə görə məhsuldar toxum sortlarının yetişdirilməsi və torpaq mülkiyyətçilərinin belə toxumlarla təmin olunması məsələlərini əhatə edir.***

## Toxumçuluğun inkişafı vacib məsələdir



Toxumçuluğun kənd təsərrüfatında hansı əhəmiyyəti vardır? Bu barədə həmsöhbət olduğumuz Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin müdiri Niyamət İsayev bildirdi ki, kənd təsərrüfatının bu vacib sahəsinin mühüm iqtisadi əhəmiyyəti vardır. Müasir dövrdə toxumçuluq elmi bazaya əsaslanan, araşdırma, təcrübə və müşahidələr əsasında inkişaf edib iqtisadi səmərə verən bir sahədir. Hazırda muxtar respublikamızda əsas ərzaq məhsulu olan taxılçılığın inkişaf etdirilməsində yüksək reproduksiyalı buğda sortlarından istifadə bunu deməyə əsas verir. Şübhəsiz, bu sahədə akademik Həsən Əliyevin yetişdirdiyi və hazırda Naxçıvanda da yüksək məhsuldarlıqla istifadə olunan "Qobustan", "Gilavar", "Xəzri" kimi yerli və eləcə də "Bezostaya", "Dağdaş", "Renan", "Quality" kimi idxal buğda sortlarının tətbiqini qeyd etmək lazımdır. Hazırda yüksək məhsuldar toxum sortları vasitəsilə taxılçılıqda bol məhsul əldə olunur ki, bu da kənd təsərrüfatının gəlirliliyini təmin edir, bu sahəyə olan marağı artırır.

Toxumçuluq ərzaq təhlükəsizliyinin təmin olunmasının əsas şərtlərindən biri, bitki genofondunun qorunub saxlanılmasının mühüm prinsiplərindəndir. Başqa sözlə, əhalinin sağlamlığı kimi mühüm məsələləri də özündə ehtiva edən toxumçuluq davamlı olaraq həyata keçirilən bir iş kimi öz əhəmiyyətini göstərir. Ancaq bölgənin torpaq, iqlim xüsusiyyətlərinə uyğunlaşmış və yüksək məhsul verən toxum sortları almaq heç də asan məsələ olmayıb, ardıcıl və elmi əsaslarla həyata keçirilən araşdırma və təcrübi üsulların vəhdəti ilə hasilə gəlir. Misal üçün, buğda sortlarının alınması zamanı orijinal hesab edilən ilkin toxum seleksiya yolu ilə alınır. Seleksiya müəssisələrində yetişdirilən belə superelit sortlar daha sonra çoxaldılaraq elit toxumlar şəklində təsərrüfatlara paylanılır. Torpaq mülkiyyətçilərinə verilmiş toxumlar əsasında R1, R2, R3 reproduktiv toxumlar istehsal olunur. Bunlardan da R1 ən yaxşı toxumluq buğda hesab edilir.

Hazırda muxtar respublikamızda toxumluq buğda əkilib-becərilməsi ilə beş təsərrüfat məşğul olur. Bunlar "Bərəkət", "Araz" Elm-İstehsalat Birliyinin toxumçuluq təsərrüfatı, Şərur rayonunda fəaliyyət göstərən "Aqrotexservis" Səhmdar Cəmiyyətinin toxumçuluq təsərrüfatı və yenə də Şərurdakı "Sədi" və "Təbriz" toxumçuluq təsərrüfatlarıdır. Cari ildə bu təsərrüfatlarda indiyə qədər, təqribən, 1100 tondan çox toxumluq buğda istehsal olunub. Hazırda hasil olunmuş toxumun ələnib dərmanlanması və qablaşdırılması davam etdirilir. Yeri gəlmişkən onu da qeyd edək ki, muxtar respublikamızda istehsal olunan bütün taxılın toxum təminatı məhz yerli istehsal hesabına ödənilir.

Kənd təsərrüfatında hər bir sahə kimi, toxumçuluq sahəsində də davamlı inkişaf tələb olunur. Başqa sözlə, burada yeni sortların yetişdirilib çoxaldılması kimi regiona məxsus ənənəvi sortların da qorunub saxlanılması günün vacib məsələlərindəndir. Bu işdə muxtar respublikamızda toxum və ting istehsalı ilə məşğul olan təsərrüfatların fəaliyyətinin müasir tələblərə uyğunlaşdırılmasına ehtiyac vardır. Belə ki, dənli və dənli-paxlalı bitkilərin toxumçuluğunda xeyli inkişaf olsa da, tərəvəz, kartof, soğan, qarğıdalı və yem bitkilərinin toxumçuluğunda, habelə tingçilik sahəsində hələ də arzuedilən səviyyəyə çatılmayıb. Halbuki muxtar respublikamızda bunun üçün imkanlar vardır. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi toxumları analiz etmək üçün lazımi avadanlıqlarla təmin olunub. Burada pulsuz olaraq toxumları analiz etmək mümkündür ki, yaradılmış bu şəraitdən torpaq mülkiyyətçiləri istifadə edə bilərlər.

Həmsöhbətim onu da qeyd etdi ki, zəmilərdən, bağ və bostanlardan yaxşı məhsul əldə etmək üçün yüksək məhsuldar toxumlardan istifadə ilə bərabər, eyni zamanda aqrotexniki tədbirlərə vaxtında əməl olunması, temperatur, nəmlik kimi mühüm şərtlərin diqqətə alınması lazımdır. Əkindən qabaq yetişdirilmiş toxumlar hökmən dərmanlanmalı, əkin optimal müddətdə keçirilməlidir. Məhz belə olduqda hər bir torpaq mülkiyyətçisi öz zəhmətinin bəhrəsini daha çox görəcək, süfrələrimizin bərəkəti bol olacaqdır.

**✍ Əli CABBAROV**



***Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1995-ci ildə dahi bəstəkar Üzeyir Hacıbəyovun anadan olduğu günün – 18 sentyabrın "Milli Musiqi Günü" kimi qeyd olunması haqqında Fərman imzalamışdır. Həmin tarixdən etibarən hər il sentyabrın 18-i ölkəmizdə "Milli Musiqi Günü" kimi qeyd olunur.***

*18 sentyabr Milli Musiqi Günüdür*

# Azərbaycan musiqi mədəniyyəti zəngin ənənələrə malikdir

Azərbaycan musiqi mədəniyyətinin tarixi çox qədimdir. Gəmiqaya və Qobustan qayaüstü rəsmləri, eləcə də "Kitabi-Dədə Qorqud" dastanı xalqımızın qədim musiqi mədəniyyəti haqqında zəngin məlumat verir. Hələ XIII əsrdə Səfiəddin Urməvi, sonralar isə onun davamçıları Azərbaycan musiqisinin nəzəri məsələlərini araşdırmış, musiqimizin səs sistemi, ladları, musiqi alətləri haqqında dəyərli əsərlər yazmışlar. Bu nadir elmi əsərlər dünyanın bir sıra dillərinə tərcümə edilmiş, Şərqin və Qərbin böyük tədqiqatçıları və musiqişünaslarının marağına səbəb olmuşdur. Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Bizim gözəl incəsənətimiz, mədəniyyətimiz, bənzərsiz xalq musiqimiz və ondan bəhrələnən, onun əsasında yaranan müasir, peşəkar musiqimiz var. Zənnimcə, peşəkar musiqimiz həm görkəmli bəstəkarlarımızın, həm də mahir ifaçılarımızın ən böyük nailiyyətidir".***

Bu gün ölkəmizdə yüksək peşəkarlığı, orijinal musiqi üslubu ilə seçilən bəstəkarlıq məktəbinin formalaşmasında Üzeyir Hacıbəyovun əvəzsiz xidmətləri olmuşdur. Dahi bəstəkarın yaradıcılığı doğma Azərbaycanımızın hüdudlarını aşaraq ona dünya şöhrəti qazandırmışdır. Bu sənət milli və coğrafi sərhədlər tanımır, onun zəngin milli və ümumbəşəri duyğuları əks etdirən əsərləri dünyanın müxtəlif ölkələrində ifa olunur, dinlənilir və sevilir. Üzeyir Hacıbəyov təkcə Azərbaycan professional musiqisinin banisi kimi deyil, həm də böyük alim, maarifçi, dramaturq, publisist, pedaqoq, ictimai xadim kimi Azərbaycan tarixində görkəmli yer tutur.

Qədim tarixə malik olan Azərbaycan musiqi sənəti ötən əsrin 70-ci illərində yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Həmin dövrdə ulu öndər milli musiqimizin böyük simaları olan Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Tofiq Quliyev, Arif Məlikov kimi dünya səviyyəli bəstəkarlarımızın yaradıcılığını yüksək qiymətləndirmiş, Azərbaycan musiqi mədəniyyətinin inkişafına böyük qayğı göstərmişdir. Korifey sənətkarlarımız Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov bu dövrdə "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görülmüşlər. Ümummilli liderimiz ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra da Azərbaycan musiqisinin inkişafına böyük qayğı göstərmiş, ixtisaslı musiqiçi kadrların hazırlanmasına xüsusi diqqət yetirmişdir. Tanınmış bəstəkar və musiqiçilər "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif olunmuş, fəxri adlara, Prezident mükafatı və təqaüdünə layiq görülmüşlər.



Azərbaycan bəstəkarlarının musiqi əsərləri həm də zəngin multikultural dəyərlərin daşıyıcısı kimi diqqəti cəlb edir. Bəstəkarlarımızın yaradıcılığında başqa xalqların tarix və həyatına, məişətinə, mübarizəsinə, düşüncə tərzinə maraq müşahidə olunur. Qara Qarayevin "Yeddi gözəl", "İldırımlı yollarla" baletləri, "Don Kixot" simfonik qravürləri, "Vyetnam qravürləri", "Alban rapsodiyası", Niyazinin "Çitra" baleti, Fikrət Əmirovun "Min bir gecə" baleti, "Gülüstan Bayatı-Şiraz" simfonik muğamı, Soltan Hacıbəyovun "Hindistan lövhələri", Rauf Hacıyevin "Əlcəzair inqilabı", "Kuba, məhəbbətim mənim", Vasif Adıgözəlovun "Çanaqqala-1915" və başqa musiqi əsərləri zəngin musiqi mədəniyyətimizin multikultural dəyərləri ilə yanaşı, başəriliyini də aydın göstərməkdədir.

Bu gün ölkəmizdə musiqi sənətinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Hər il ölkəmizdə yeni musiqi məktəbləri inşa olunur, konsert salonları təmir edilir və yenidən qurulur, maddi-texniki bazaları gücləndirilir, milli musiqiçi kadrların yetişdirilməsi istiqamətində uğurlu layihələr həyata keçirilir. Son illər keçirilən Beynəlxalq Üzeyir Hacıbəyov Musiqi Festivalı, Vokalçıların Bülbül adına Beynəlxalq Müsabiqəsi, Bakı Beynəlxalq Caz Festivalı, Beynəlxalq Rostropoviç Festivalı, Beynəlxalq Aşıq Festivalı, Beynəlxalq Muğam Festivalı, Beynəlxalq Muğam Simpoziumu, Qəbələ Beynəlxalq Musiqi Festivalı, Beynəlxalq İpək Yolu Musiqi Festivalı və başqa yüksək səviyyəli tədbirlər ölkəmizdə musiqi mədəniyyəti sahəsində görülmüş işlərin əyani təzahürüdür.

***"Azərbaycanın çox zəngin və böyük musiqi ənənələri vardır. Biz öz musiqimizlə fəxr edə bilərik. Azərbaycanın bir ölkə kimi, müstəqil ölkə kimi yaşaması və inkişafı, dünya miqyasında şöhrəti Azərbaycanın musiqi mədəniyyəti ilə sıx bağlıdır"***, – deyən Prezident İlham Əliyevin diqqət və qayğısı ilə milli musiqi sənətimizin tanıdılması və təbliği istiqamətində ardıcıl tədbirlər görülür. Dövlət başçısının sərəncamı ilə yaradılan və yüksək səviyyədə inşa olunaraq istifadəyə verilən Beynəlxalq Muğam Mərkəzi qədim sənətə diqqət və qayğının daha bir ifadəsidir.





2011-ci ildə ölkəmizin "Eurovision" mahnı müsabiqəsində qalib gəlməsi və 2012-ci ilin may ayında Bakı şəhərində 57-ci "Eurovision" mahnı müsabiqəsinin yüksək səviyyədə keçirilməsi isə Azərbaycanın musiqi mədəniyyətini və yüksək təşkilatçılıq imkanlarını bir daha dünyaya nümayiş etdirmişdir.

Musiqi mədəniyyətimizin inkişafı sahəsində həyata keçirilən tədbirlərdə Heydər Əliyev Fondu da yaxından iştirak edir. 2005-ci ilin martında Parisdə "Qarabağ xanəndələri" albomunun təqdimat mərasiminin keçirilməsi, "Üzeyir Hacıbəyov Ensiklopediyası"nın, Azərbaycan, rus və ingilis dillərində ikicildlik "Muğam Ensiklopediyası"nın, "Muğam" jurnalının işıq üzü görməsi mədəniyyətimizin tanıdılması sahəsində həyata keçirilən mühüm tədbirlərdəndir. 2003-cü ildə Azərbaycanın muğam, 2009-cu ildə aşıq sənətinin, 2012-ci ildə tar ifaçılığı sənətinin YUNESKO tərəfindən "Bəşəriyyətin qeyri-maddi mədəni irsi reprezentativ siyahısı"na daxil edilməsi isə qədim musiqi mədəniyyətimizə verilən qiymətin daha bir ifadəsidir.

Naxçıvan Muxtar Respublikasında da milli musiqimizin inkişafına hərtərəfli dövlət qayğısı göstərilir. Muxtar respublika mədəniyyəti bu gün özünün yeni inkişaf dövrünü yaşayır. Bu yüksəlişin fonunda milli musiqi sənətinin də inkişafı təmin olunmuşdur. Son illər Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə yeni musiqi məktəbləri tikilib istifadəyə verilmiş, Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının, Naxçıvan Musiqi Kollecinin maddi-texniki bazası gücləndirilmiş, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının, Aşıqlar Birliyinin fəaliyyəti təmin edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyinin keçirilməsi haqqında" 2015-ci il 29 mart tarixli Sərəncamına əsasən, ötən il musiqi ocağının yubileyi muxtar respublikamızda geniş qeyd olunmuş, yerləşdiyi bina əsaslı şəkildə yenidən qurulmuşdur. Musiqinin inkişafına göstərilən qayğı Naxçıvan bəstəkarlarının yaradıcılıq imkanlarını da genişləndirmişdir. Onlar yaradılan şəraitdən istifadə edərək yeni əsərlər yazır, Azərbaycan musiqi sənətini dəyərli əsərlərlə zənginləşdirirlər.

Bu gün muxtar respublikada milli musiqimizin təbliği istiqamətində də mühüm tədbirlər görülür. Ötən dövrdə Naxçıvan Dövlət Filarmoniyasının xarici ölkələrə qastrol səfərləri təşkil edilmiş, musiqi kollektivləri Rusiya Federasiyasında, Türkmənistanda, Türkiyədə və Polşada uğurla çıxış etmiş, musiqi kollektivlərinin və Şərur Xalq Yallı Ansamblının çıxışları maraqla qarşılanmışdır.

Musiqimizin inkişafı istiqamətində görülən tədbirlər uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərini də əhatə etmişdir. Son illər 20-dən çox musiqi məktəbi üçün bina inşa olunaraq və ya yenidən qurularaq istifadəyə verilmişdir. Bu gün muxtar respublikada 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi fəaliyyət göstərir. Bu sahədə həyata keçirilən tədbirlər davamlı xarakter almışdır. Ötən il Naxçıvan şəhərinin Qaraçuq və Culfa rayonunun Bənəniyar kəndlərində uşaq musiqi məktəbləri üçün yeni binalar istifadəyə verilmişdir. Naxçıvan şəhərindəki 2 nömrəli Uşaq Musiqi Məktəbi, Sədərək Rayon Uşaq Musiqi Məktəbi üçün də yeni bina inşa olunmuş, musiqi təhsilinin nümunəvi təşkili üçün hərtərəfli şərait yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin rolunu yüksək qiymətləndirərək demişdir: ***"Musiqi hər bir xalqın mədəni inkişafının göstəricisidir. Azərbaycan xalqının zəngin xalq yaradıcılığı nümunələri, milli dəyərləri və adət-ənənələri vardır. Bunlar hər xalqa nəsib olmur. Çünki xalq yaradıcılığını, milli dəyərləri ancaq zəngin mədəniyyətə malik olan xalq yarada bilər. Bu gün muxtar respublikada musiqi məktəblərinin yaradılmasında əsas məqsəd xalq yaradıcılığı nümunələrini qoruyaraq gələcək nəsillərə çatdırmaqdan, o cümlədən musiqi mədəniyyətimizin inkişafına töhfələr verməkdən ibarətdir".***

Uşaqların istedadının üzə çıxarılmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 19 aprel tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Filarmoniyasının da mühüm rolu vardır. Filarmoniyada xalq çalğı alətləri, kamera orkestri, mahnı və rəqs ansamblı, xor kollektivi fəaliyyət göstərir. 1998-ci ildə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin nəzdində konservatoriyanın açılması isə ali təhsilli musiqiçi kadrların yetişdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamından sonra Naxçıvan Aşıqlar Birliyi yaradılmış, Azərbaycan xalqının tarixini özündə yaşadan xalq musiqisi, yallılar, xalq rəqsləri, toy adətləri təbliğ olunmağa başlanılmışdır.

Qədim diyarımızda son illər xalq musiqisinin, yallılarımızın, muğamlarımızın nota köçürülməsi sahəsində görülən işlər də bu sahəyə göstərilən diqqət və qayğının ifadəsidir. Bu il Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi ilə birgə keçirdiyi və noyabr ayında başa çatacaq "Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi-2016" ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

Muxtar respublikanın musiqi kollektivlərinin əməyi dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilmiş, səmərəli fəaliyyətlərinə görə musiqiçilərimiz Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, Prezident təqaüdü və mükafatlarına layiq görülmüşlər.

*Musiqi insanları bir-birinə yaxınlaşdırmaq, doğmalaşdırmaq gücünə malikdir. Bu gün Azərbaycan musiqisi dünyanın qəbul etdiyi sənət nümunəsidir. Zaman dəyişir, zövqlər dəyişir, əsl musiqi isə əbədi yaşayır. Azərbaycan musiqisi bu gün sevilir, qorunur, yaşadılır və təbliğ edilir.*

***Naxçıvan Muxtar Respublikası***
***Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

# Milli Musiqi Günü qeyd olunub



Milli Musiqi Günü münasibətilə Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı ilə birgə tədbir keçirilib.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov müəllim və tələbələri yeni dərs ilinin başlanması və Milli Musiqi Günü münasibətilə təbrik edib, bu günün tarixindən, Azərbaycan klassik musiqi janrının inkişafında böyük xidmətləri olan dahi bəstəkar Üzeyir Hacıbəyovun yaradıcılığından, milli mədəniyyətimizin inkişafındakı xidmətlərindən söz açıb.

Qeyd olunub ki, Üzeyir Hacıbəyov elmi musiqişünaslığın, musiqi təhsilinin əsasını qoyub və ömrünün sonunadək musiqi mədəniyyətinin inkişafına xidmət edib. Dahi bəstəkarın yaratdığı musiqi inciləri dünya şöhrəti qazanıb, dünya musiqi mədəniyyətinin qızıl fonduna daxil olub.

Sonra İncəsənət fakültəsinin dekanı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının məsul katibi Günay Məmmədovanın bəstəkarın həyat və yaradıcılığı haqqında çıxışı dinlənilib.

Tədbirin bədii hissəsində müəllif əsərləri ilə yanaşı, bəstəkara ithaf olunmuş musiqi nömrələri də ifa olunub. Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Nərminə Qədimovanın və baş müəllim Xalubər Nazamovanın müşayiəti ilə "Cəngi", "Arşın mal alan" operettasından Əsgərin ariyası, Telli ilə Vəlinin dueti, Gülçöhrənin ariyası, "Çırpınırdı Qara dəniz", "Qaragöz" kimi əsərlər, həmçinin Kamal Əhmədovun bəstələrindən "Aşıqsayağı", Yaşar Xəlilovun ifasında isə "İblis" operasından parçalar səsləndirilib.

**Nərmin CABBAROVA**

*"Ata, məktəbə getmirəm, sinif yoldaşlarım gözəl paltarlar geyinir, mən utanıram. Mənə də gözəl paltarlar alın", – deyib israr edən uşaqlarımıza naəlac qalıb cürbəcür geyimlər alan, "kitabım yoxdur, yaxud da köhnədir dərsi oxuya bilmirəm", – deyən uşaqlarımıza o dükan mənim, bu dükan sənin kitab axtaran, səhər uşağın çantasını götürüb döşəkçə ilə məktəbə yollanan, "uşağı neft sobasının yanında oturt, xəstədir", – deyib müəllimdən xahiş edən valideynlər az olmayıb. Bəli, bu bir tarixi dövr idi, yaşadıq. Zaman öz işini gördü. Köhnə məktəb binalarının yerində möhtəşəm, müasir istilik sistemi ilə təmin olunmuş, hər cür şəraitə malik təhsil ocaqları ucaldıldı. Şagirdlər pulsuz dərsliklərlə təmin olundu, vahid məktəbli formasına keçildi. Elə müəllimlər də vahid forma geyindi. Məktəb modalar nümayiş etdirilən, şagirdlərə mənəvi və psixoloji təsir obyektindən əsl təhsil məbədinə çevrildi. Dildə dediyimiz bərabərlik əməldə təsdiq olundu. Bu, dövlətin nəzarətində olan orta, orta ixtisas təhsili müəssisələrində və ali məktəblərdə yaradılan qayda-qanun, milli-mənəvi dəyərlərimizi yad təsirlərdən qorumaq üçün mühüm və deyərdim ki, vaxtında atılmış gərəkli addım idi.*

*Jurnalistin qeydləri*

## Milli geyimlərimizi itirib "müasirləşməyək"

Amma... Amması ondadır ki, ictimaiyyət də bu işdə dövlətin yaxın köməkçisi olmalı, ictimai qınaq deyilən məfhum öz yerini tutmalıdır. Yoxsa mənə nə var, yaxud da zaman dəyişib, gənclik qoy nə edir etsin, necə istəyir geyinsin, – deyib ötüb-keçməklə milli-mənəvi dəyərlərimizə balta çalanlara kömək edir, keçmişimizlə, tariximizlə yenilik, müasirlik arasında bir təzad yaradırıq.

Bir neçə il bundan əvvəlin söhbətidir. Ticarət mərkəzində səs yayıldı ki, Nəcəfalı yeni çeşiddə qadın geyimləri gətirib. İstər-istəməz maraqlandıq. Gedib baxdıq ki, idman formasına oxşar, amma həddindən artıq dar tikilişdə olan bir geyimdir. "Ayıbdır, bu geyimi yığışdır, bu, bizim mentalitetimizə uyğun deyil", – deyib hamımız bir ağızdan Nəcəfalını məzəmmət etdik. Nəcəfalı bizə sakitcə qulaq asdı. Qəhqəhə çəkib güldü: – Nə geridə qalmış adamlarsınız. Dünya dəyişib, hamı müasirləşib. Çox çəkməz ki, siz də müasirləşər, mənim dükanımın daimi müştərisi olarsınız, – dedi.

Şənbə günü idi. Pəncərədən həyətə boylanan uşağa dedim: – Ay bala, niyə gedib həyətdə oynamırsan?

– Baba, mən həyətdə oynamağa getmirəm, utanıram.

– Niyə? – deyə təəccüblə soruşdum.

– Uşaqlar mənim donuma lağ edib gülürlər, – deyib ağladı.

– Yaxşı, sabah başqa bir don alaram, ondan ötrü niyə ağlayırsan? – deyib uşağı sakitləşdirməyə çalışdım.

– Baba, bu dəfə sən istədiyini yox, mənim seçdiyim paltarı alacağıq, – deyib şərtləşdik.

Ertəsi gün ticarət mərkəzinə getdik. Çox gəzdik. Nəhayət, "Baba, tapdım. Bax ondan istəyirəm, uşaqlar bundan geyinir", – deyib dükanı göstərdi. Baxdım ki, Nəcəfalının dükanıdı. Bəyəndiyi də elə Nəcəfalının gətirdiyi geyimdir. "Ay qızım, bundan başqa, nə istəyirsən alım", – deyib israr etsəm də, nəticə olmadı. Çünki uşaq da bu "geyim xəstəliyinə" yoluxmuşdu. O xəstəliyə ki qonşuluqda məktəbyaşlı uşaqdan tutmuş nəvəsi olan qadınlaradək hamı yoluxmuşdu. Nəcəfalının dükanında növbə idi. Artıq Nəcəfalı özünə köməkçi də götürmüşdü, yenə çatdıra bilmirdi. Aşağı qiymət, yüksək keyfiyyət, – deyib bazar iqtisadiyyatının tələblərinə daban-dabana zidd olan bu iki kəlmə sözü barışdırıb özünün loqosuna çevirərək mal satmaq üçün dəridən-qabıqdan çıxırdı.

Nə isə, bir qədər sonra Nəcəfalının piştaxtasına yaxınlaşdıq. Kefi kök idi. Tək üzü yox, gözləri də gülürdü.

– Hə, qardaş, gəlmisən, ya gətiriblər?– deyib əlimdən tutan uşağı göstərdi. Və iki ay əvvəl etdiyimiz söhbətə üstüörtülü işarə etdi. Elə mən də üstüörtülü olsun deyə, – ikincidir, yəni gətiriblər, – dedim. "Arifə işarə, kötüyə balta", – deyiblər babalarımız. Nəcəfalı da arif adam idi. Məsələnin nə yerdə olduğunu başa düşdü.

– Hə, qızım, hansı paltardan istəyirsən, verim.

Uşaq əli ilə yuxarıda asılmış paltarı göstərdi.

– Qızım, o paltardan balacası yoxdur. Böyükləri qalıb. Gələndə babana xəbər verərəm, gəlib götürərsiniz, yaxşı? – deyib uşağı razı saldı. Üstəlik, qonşu dükanda milli mentalitetimizə uyğun geyimlər satan, müştəri qıtlığı üzündən mürgüləyən Əlini çağırıb uşağa yaxşı bir don da təşkil etdi. Beləliklə, Nəcəfalı, bəlkə də, ömründə bir savab iş gördü. Məni böyük bir dərddən, uşağı isə yoluxacağı "xəstəlik"dən xilas etdi.

Amma indi işə gəlib-gedərkən milli mentalitetimizə zərbə vuran bu acınacaqlı mənzərənin şahidi yox, tamaşaçısı olursan. Bəzən də bu eybəcər geyimli gənclərin yanından gözüyumulu keçirsən. Amma nə fayda. Gözüyumulu keçdiyin bir dəqiqədən sonra növbəti mənzərənin tamaşaçısına çevrilirsən.

Şəhərarası marşrut avtobusunda yanaşı dayandığım iki gənc qızdan biri digərinə: –Sosial şəbəkədə kəlağayıdan status yazdım bəyənilmədi, – deyib gileylənirdi. Qolunda tatuaj olan qıza, – Avropasayağı geyinib, milli geyimlərimizdən yazanda, əlbəttə, bəyənilməyəcək. Kəlağayını mənən dəyərləndirib, ruhən yaşayıb yazasan gərək, bəyənilsin, – dedim. Qulaqlarından şunur sallanan, ağzını mikrofona tutub 40 dərəcə istiliyi olan xəstələr kimi hərdənbir sayıqlayan, tok Əlini xatırladan qızlar bir-birinə: – Dayı deyəsən geridə qalıb, dünyadan bixəbərdir, – deyib qucağına bərk-bərk sıxdığı "balaca televizor"unu vərəqləyə-vərəqləyə, ana öz körpəsinə nəvaziş göstərdiyi kimi, sığallaya-sığallaya növbəti dayanacaqda düşmək üçün avtobusun ön qapısına yaxınlaşdılar. Bilmədim, elə o dayanacaqda düşməli idilər, yoxsa iradım xoşlarına gəlmədiyindən mənimlə yol yoldaşı olmaq istəmədilər. Amma məsələ burasında idi ki, bu moda xəstəliyinə tutulmuş modabazların avtobusdan düşməyi də özünəməxsus oldu, çox uzun çəkdi. Müasirlikdən dizləri süzülmüş cins şalvarını yuxarı, varlılıqdan dirsəklərinə yamaq salınmış köynəyini aşağı darta-darta, "xüsusi zövqlə bəzədilmiş", günlüklü, Meksikanski kepkasına, Braziliyasayağı ayaqqabısına düzəliş verə-verə üç pilləkənin sonuncusuna düz 2 dəqiqəyə ayaq basdılar. Nəhayət, sürücü: – Ay qızım, bir balaca tələsin də. Qrafikdən çıxıram, sərnişinləri vaxtında mənzilbaşına çatdırmalıyam axı, – deyə gileyləndi.

– Biz sərnişin deyilik bəyəm? Düşürük də, – deyib bir az da sürücünü və sərnişinləri borclu salıb getdilər. Əsəbləri tab gətirməyən ortayaşlı, xanım-xatın bir qadın, – bunların axırı necə olacaq? – deyib yanaşı əyləşdiyi digər qadının üzünə baxdı: – Günah özümüzdədir. Onları evindən çıxaran valideyn deyə bilmir ki, ay bala, bu nə geyimdir, geyinib cəmiyyət içinə çıxırsan? – dedi. Qadının iradını sərnişinlərdən kimisi nümayişkaranə, kimisi də başını bulamaqla təsdiq etdi.

Elə buradaca yadıma düşən maraqlı bir əhvalatı oxucularıma çatdırmaq istəyirəm:

İki qonşu mübahisə edir. Ağsaqqallar qonşuları ayrı-ayrılıqda danışdırıb, mübahisənin səbəbini aydınlaşdırmağa çalışırlar. Qonşunun birindən barışmaq üçün nə təklif edirsən, – deyib soruşurlar. Cavabı həm gülməli, həm də təəccüblü olur:

– Qonşuma deyin, gözümə görünməsin, onun geyimini görəndə gözlərim ağrıyır.

Bəli, biz də istər-istəməz hələlik gözümüzü ağrıdan bu mənzərənin tamaşaçısı olmağa məhkum olmuşuq. Amma bədbin də deyilik. İnanırıq ki, bütün xəstəliklər kimi, "geyim xəstəliyi" də uzunmüddətli yox, ötüb-keçən olacaq. Amma yaddan çıxarmaq olmaz ki, istər uzunmüddətli, istərsə də keçici olsun, hər bir xəstəlik özündən sonra başqa bir formada fəsadlar törədir. Gəlin telekanallarda seyr etdiyimiz serial qəhrəmanlarına, gəzdiyimiz ölkələrin vətəndaşlarına oxşamağa çalışıb, Avropasayağı geyinib müasirləşirik deyib milliliyimizə xələl gətirməyək. Nənə-babalarımızın bizə əmanət etdiyi milli geyimlərimizə dönək, hörmət-izzət, ədəb-ərkan, xeyir-bərəkət sahibi olaq. Bu arzu və istəyin reallaşmasının, həyata keçirilməsinin yolu isə ictimai qınaqdan, ümumilikdə, birlikdə aparılan mübarizədən keçir. Atalar yaxşı deyiblər: "Tək əldən səs çıxmaz". Millətimizə, milli dəyərlərimizə xələl gətirən "müasirləşməyə" qarşı birgə mübarizə aparıb gələcəkdə üzləşəcəyimiz problemlərdən və bu problemlərin yaradacağı fəsadlardan qorunmaq üçün özümüzə qayıdaq. Hər bir insan, hər bir millət özünə qayıdanda gözəl, dövlət isə güclü və qüdrətli olur.

**Kərəm HƏSƏNOV**

## Muxtar respublikanın rayonlarında təşkil olunan sərgi-satışlar milli dəyərlərimizin yaşadılmasına xidmət etdi

*Milli dəyərlərin yaşadılması, milli-mədəni irsə qayıdış siyasəti bu gün muxtar respublikamızda uğurla davam etdirilir, bu istiqamətdə ardıcıl tədbirlər görülür. Milli dəyərlərin əsas yaradıcıları və daşıyıcıları qadınlardır. Buna görə də həyata keçirilən dövlət qadın siyasətinin tərkib hissəsi olaraq istedadlı qadınların fəaliyyətlərinin dəstəklənməsinə xüsusi diqqət yetirilir. Gənc qızların xüsusi peşələrə yiyələnməsi, həmçinin istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün xalçaçılıq, dərzilik kimi peşə kurslarının təşkil olunması bu sənət nümunələrinin qadınlar tərəfindən qorunub saxlanılması, yaşadılması baxımından mühüm əhəmiyyət daşıyır.*

Cari ildə muxtar respublikanın rayonlarında qadınların rəsm və əl işlərindən ibarət təşkil olunan sərgi-satışlar özünəməxsusluğu ilə seçilib. İlk olaraq qeyd etmək lazımdır ki, bu səpkidə silsilə sərgi-satışlar muxtar respublikanın rayonlarında ilk dəfə olaraq təşkil edilib. Hər bir rayona məxsus adət-ənənələrin əl işlərində öz əksini tapması sərgi-satışları bir-birindən fərqləndirib. Belə ki, Ordubad rayonunun istedadlı qadınları dekorativ, Culfa rayonunun yaradıcı xanımları tikmə və toxuma əl işləri ilə seçiliblərsə, Şahbuz rayonunun xalçaçıları ərsəyə gətirdikləri milli ornamentli xalça nümunələri ilə hər kəsi heyrətləndirib, rəngarəng toxuma əl işləri ilə əsrlərdən gələn toxuma el sənətini yaşatdıqlarını göstəriblər. Şərur və Kəngərli rayonlarının istedad sahibləri olan qadınlar yaratdıqları dekorativ, tikmə, toxuma əl işləri, rəsm əsərləri, xalça və digər sənət nümunələri ilə sərgiləri seyr edənlərə xüsusi zövq veriblər. Ümumiyyətlə, yaradıcı insanların sevincinə, zəhmətlərinin qiymətləndirilməsinə xidmət edən bu sərgi-satışlar milli dəyərlərimizin də yaşadılmasına bir töhfədir.

Ümumilikdə, muxtar respublikanın rayonlarında təşkil olunan sərgi-satışlara 385 qadının 2907 rəsm və əl işi çıxarılıb, 175 qadının 4489 manat dəyərində 383 rəsm və əl işi satılıb. Bunu da qeyd edək ki, sərgi-satışlarda iştirak edən iki qadından birinin əl işinin satılması onların özünüməşğulluğunun təmin edilməsi, maddi gəlir əldə etməsi baxımından əhəmiyyətlidir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yerli icra hakimiyyətləri ilə birgə xalqımızın adət-ənənələrinin yaşadılması, qadınların istedadlarının üzə çıxarılması və inkişaf etdirilməsi ilə bağlı bundan sonra da müvafiq tədbirlər həyata keçirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

***Ta qədim zamanlardan geyim insan həyatının ayrılmaz bir hissəsinə çevrilib. Təbii ki, gündəlik həyatımızda, ziyafətlərdə istifadə etdiyimiz bu geyimlərin hər birinin yaradıcısı olur. İstəyiriksə geyimlərimiz qüsursuz olsun, onda peşəkar dərzilərin əməyindən istifadə etməliyik. Belə dərzilərdən biri də Şəlalə İbrahimovadır.***

*Sadə peşə adamları*

## Gözəllik ondur, doqquzu dondur

Onunla çalışdığı emalatxanada görüşdük. Şəlalə xanım bizi çox səmimi qarşıladı. Çalışdığı 25 il ərzində bu peşənin bütün sirlərinə bələd olan Şəlalə xanım dedi:

– Hansı peşə olursa-olsun, ona ürəkdən bağlanmasan, uğur qazana bilməzsən. Dərzi peşəsini seçməyimin əsas səbəbi gözəl geyimlərə, dəbə böyük marağımın olmasıdır. Gənc yaşlarımda gözəl dəblə geyinmiş insanlarla qarşılaşanda belə geyimlərimin olmasını arzulayırdım. Ancaq məlum məsələdir ki, o zamanlar hər istədiyin geyimi əldə etmək müşkül məsələ idi. Düşünüb-daşınıb belə qərar verdim ki, bu paltarları özüm də tikə bilərəm. Beləcə, mənim dərzilik peşəsi ilə bağlı şagirdlik dövrüm başladı. 3 il məişət xidmətləri məktəbində oxudum. Bu peşənin incəliklərini öyrəndim.

Şəlalə xanım onu da dedi ki, bu illər ərzində paltar tikdirmək, eləcə də paltarın ölçüsündə və formasında dəyişikliklər etmək üçün yüzlərlə müştəri müraciət edib. Çalışıb ki, müştəriləri razı yola salsın, geyimləri keyfiyyətli tiksin.

Yaxşı geyimlərin ərsəyə gəlməsi üçün diqqətli, dəqiq və səliqəli olmalısan. Geyimin qüsursuz alınması üçün dəqiq biçməlisən. Necə deyərlər, yüz ölç, bir biç. Əgər bu işə maraq vardırsa, iynələrlə, saplarla dost olacaqsan. Bütün bunlarla yanaşı, səbir də bu işdə mühüm rol oynayır. Elə müştərilər olur ki, nazı ilə oynamaq lazım gəlir. İstəklərini nə qədər yaxşı yerinə yetirsən də, belə insanlar çox çətin məmnun qalırlar. Dərzi eyni zamanda öz zövqü ilə müştərinin zövqünü də uyğunlaşdırmağı bacarmalıdır, – deyən Şəlalə İbrahimova diqqətimizə onu da çatdırdı ki, təkcə geyimlərin tikilməsi yox, mağazadan alınmış geyimlərin bədənə uyğunlaşdırılması üçün də ona paltarlar gətirilir. Çünki mağazalarda elə geyimlər olur ki, müştərinin zövqünü oxşayır, ancaq geyimdə nəyisə dəyişmək lazım gəlir. Çox vaxt müşahidə edirəm ki, bəzi xanımlarımız başqasının əynində gördükləri paltarı zorla özlərinə yaraşdırmağa çalışırlar, paltarların ölçüsünü, rəngini nəzərə almırlar. Belə müştərilərə deyirəm ki, hər kəsə eyni rəngli və biçimli olan geyimlər yaraşa bilməz. Çünki hərənin özünəməxsus bədən quruluşu, ölçüsü var. Müştərini belə vəziyyətdə fikrindən daşındırmağa çalışıram.

Şəlalə xanım gənc nəslin geyimləri məsələsinə də toxundu. Bildirdi ki, bəzi gənclərimizin geyimləri mentalitetimizə, ənənələrimizə heç uyğun deyil. Bəziləri deyir ki, zəmanə bunu tələb edir və gənc yaşlarında bu geyimləri geyinməsələr, nə vaxt geyinəcəklər?! Elə buna görə də onları başa düşməyə çalışır və tam olmasa da, haqq vermiş oluram.

Söhbətimizin bu yerində Şəlalə xanım Naxçıvan şəhərində moda evinin açılmasını çox arzuladığını dilə gətirdi. Dedi ki, şəhərimizdə moda evinin açılması, biz dərzilərin tikdiyi geyimlərin də vitrinlərdə görünməsi və münasib qiymətlərlə insanlarımıza təqdim edilməsi onun arzularından biridir.

Şəlalə xanımın öz peşəsinə olan sevgisi gənclərimizə əsl nümunədir. Onun dediyi kimi bu və bu kimi peşələrin qadını, kişisi olmaz. Əgər peşəni sevirsənsə, bu yolda özünü tapana qədər çalışmalısan.

Həyatda bir iz qoymaq istəyiriksə, mütləq deyil ki, ali məktəbə daxil olaq. Elə insanlar var ki, yüksək nəticə ilə universitetə qəbul olur, ancaq bu sahə üzrə işləmir və o diplom da itib-batır. Bir sözlə, cəmiyyətimizə xeyir vermək üçün hansısa peşə də bizə kömək ola bilər. Bunun üçün isə Naxçıvanda hər cür şərait yaradılıb, müasir peşə məktəbləri istifadəyə verilib.

**Telli MUSTAFAYEVA**

***Bildiriş***

"Sarar" İstehsalat Məmulatları Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN-0200001501) hüquqi adı dəyişdirilərək "Barama" İstehsalat Məmulatları Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilir.

**ŞƏRQ** *qapısı*

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Əli Cabbarov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1050. Sifariş № 693